TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________E.M. Ağayev

“_28_”_Aprel______2014-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**Dərmanı qəbul etməyə başlamazdan əvvəl bu içlik vərəqənidiqqətlə oxuyun**.
- Bu içlik vərəqənisaxlayın. Bu yenidən sizə gərək ola bilər.
- Əlavə sualınız olarsa, həkiminə və ya əczaçıya müraciət edin.
- Bu dərman sizin üçündür. Onu digərlərinə verməyin. Onların simptomları sizinkilər ilə eyni olsa da, bu onlara ziyan ola bilər.
- Əgər əlavə təsirlərdən hər hansı biri ağırlaşarsa və ya bu içlik vərəqədə göstərilməmiş əlavə təsir meydana çıxarsa, bu barədə həkiminizə və ya əczaçınıza bildirin.

**LOZAP®** 12,5mq ; 25mq; 50mq; 100mq
LOZAP®

**Beynəlxalq patentləşdirilməmiş adı:** Losartan potassium

**Tərkibi**
*Təsiredici maddə*: hər tabletdə 12,5 mq, 25 mq, 50 və ya 100 mq Losartan kalium vardır.
*Köməkçi maddələr:* mikrokristallik sellüloza, mannitol, krospovidon, susuz kolloidal 4-oksid, maqnezium stearat, talk, makroqol 6000, sepifilm 752 ağ örtük sistemi

**Təsviri**
LOZAP®12,5 *ağ-ağımtıl oval iki tərəfi qabarıq örtüklü tabletlər.*
LOZAP®25 *ağ-ağımtıl oval iki tərəfi qabarıq və bir tərəfində göstərici olan örtüklü tabletlər. Tablet bərabər olaraq iki hissəyə bölünə bilər.*
LOZAP®50 *ağ-ağımtıl oval iki tərəfi qabarıq və hər iki tərəfində göstərici olan örtüklü tabletlər. Tablet bərabər olaraq iki hissəyə bölünə bilər*
LOZAP®100 *ağ-ağımtıl oval iki tərəfi qabarıq və bir tərəfində göstərici olan örtüklü tabletlər. Tablet bərabər olaraq iki hissəyə bölünə bilər*

**Farmakoterapevtik qrupu**
Angiontensin II-nin antaqonisti
**ATC kodu:** C09CA01

**Farmakoloji xüsusiyyətləri**
LOZAP qan damarlarını genişləndirir və beləliklə ürək bədənin bütün üzvlərini asanlıqla qanla təmin edə bilir. Yüksək qan təzyiqini zəiflədir. LOZAP ürək çatışmazlığı olan bir çox xəstələrdə ürəyin fəaliyyətini artırır.

Bu məhsul yetkin yaşlı xəstələrin müalicəsi üçün nəzərdə tutulur.

**İstifadəsinə göstərişlər**
LOZAP yüksək qan təzyiqinin müalicəsində və ya ACF-in inhibitorları adlandırılan müalicələrə dözməyən xəstələrdə ürək çatışmazlığının (ürəyin zəifləmiş funksiyası) müalicəsi üçün istifadə edilir.

**Əks göstərişlər**
- losartana qarşı və ya LOZAPIN digər komponentlərinə qarşı allergiya və ya hiper həssaslıq;
- Hamiləlik;
- LOZAPDAN istifadə etməyə başlamağa əmin deyilsinizsə, tibbi məsləhət üçün müraciət edin..

**Ehtiyat tədbirləri**
LOZAPDAN istifadə etməzdən əvvəl sağlamlığınızla bağlı bütün problemləri və əvvəllər və ya hal -hazırda əziyyət çəkdiyiniz qaraciyər və ya böyrək xəstəlikləri ilə bağlı eləcə də allergik reaksiya barədə həkiminizi xəbərdar edin. Həmçinin hal- hazırda olan qusma və ya ishal barədə də həkimə məlumat verilməlidir.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
LOZAPI yüksək qan təzyiqi və ya kaliumun səviyyəsini qaldıran digər məhsullarla yanaşı istifadəsi zamanı ehtiyatlı olmaq lazımdır.

Bu səbəbdən, reseptsiz dərmanların qəbulu daxil olmaqla digər dərmanları qəbul edirsinizsə və ya ondan istifadə etmək niyyətindəsinizsə, bu barədə həkiminizə bildirin. LOZAP ilə yanaşı istənilən reseptsiz dərmanın qəbuluna başlamazdan əvvəl həkiminizdən məsləhət alın.

Tərkibində kalium və ya kaliumlu maddə (spironolakton, amilorid və ya triamteren və s.) olan dərman qəbul edirsinizsə, bu barədə həkiminizə bildirin.

**LOZAPın yemək və ya içki ilə qəbul edilməsi**
LOZAP qidadan qəbulundan asılı olmayaraq istifadə edilə bilər.

**Hamilalik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə olan qadınlar LOZAP-dan istifadə etməməlidir.
Hər hansı bir dərman qəbul etməzdən öncə həkiminizə və ya əczaçınıza müraciət edin.

**İstifadə qaydası və dozası**
LOZAPI həmişə həkiminiz dediyi qaydada qəbul edin. Əgər əmin deyilsinizsə, həkiminiz və ya əczaçınızla yoxlamalısınız. Müalicənin müddəti və dozanın həcmi həmişə sağlamlığınız və ya digər dərmanları qəbul edib etməməyinizdən asılı olaraq həkim tərəfindən təyin edilməlidir.
***Yüksək qan təzyiqinin müalicəsi***: Adi doza xəstələrin əksəriyyətində 24 saat ərzində qan təzyiqinə təsir etmək üçün gündə 1 tablet olmaqla bir dəfə qəbul edilən LOZAP 50-dir. Doza gündə bir dəfə olmaqla və ya iki hissəyə bölünmüş dozada qəbul etməklə həkim tərəfindən 2 LOZAP 50 tabletinə qədər artırıla bilər.

***Ürək çatışmazlığının müalicəsi***: Adi tövsiyə edilən ilkin doza gündəlik 1 tablet olmaqla LOZAP 12,5-dir. Bundan sonra doza tədricən həftəlik intervalla, LOZAP 50 məhsulunun 1 tablet olmaqla gündə bir dəfə adi sabit saxlayan dozaya qədər artırılır.

Böyrək funksiyasının ortadan ağıra olan pozğunluqları olan xəstələrdə və ya dializi olan xəstələrdə aşağı başlanğıc dozası gündə bir dəfə olmaqla 1tablet LOZAP 25 tövsiyə edilir.
Az doza hepatik ağırlaşması olan xəstələr üçün seçilməlidir.
75 yaşdan yuxarı xəstələrdə LOZAP 25-in 1 ədəd başlanğıc aşağı dozası gündə bir dəfə tövsiyə edilir.

LOZAP qəbul edilən qidadan asılı olmayaraq istifadə edilə bilər. Komfort və daha yaxşı yadda saxlanılması məqsədilə məsləhətdir ki, günün həmişə eyni vaxtında qəbul edəsiz.

**Doza həddinin aşılması**
LOZAP-ı dozadan artıq qəbul etməni göstərən əsas əlamətlər aşağıdakılardır: simptomatik hipotenziya və s. tez-tez başgicəllənməsi kimi üzə çıxan aşağı qan təzyiqi, sürətlənmiş və zəifləmiş nəbz. Dozadan artıq istifadə və ya məhsulun uşaq tərəfindən təsadüfən qəbul edilməsi zamanı dərhal tibbi yardıma müraciət edin.

**Əgər LOZAP-ı qəbul etməyi unutmusunuzsa**:
Əgər həkim tərəfindən xəstənin qan təzyiqini davamlı şəkildə nəzarətdə saxlamaq üçün yazılıbsa, LOZAP hər gün həkim tərəfindən məsləhət görüldüyü qaydada istifadə edilməlidir.

*Buraxılmış dozanın bərpa etmək üçün aşağıdakı dozanı artırmayın.*

**Əgər LOZAP-ı qəbul etməyi dayandırırsınızsa**:
Qan təzyiqinizi davamlı şəkildə nəzarətdə saxlamaq üçün həkiminiz tərəfindən məsləhət görülərsə, LOZAP-ı qəbul etməyi kəsməyin.

*Məhsulun istifadəsi ilə bağlı istənilən əlavə məlumat üçün həkiminizə və ya əczaçıya müraciət edin.*

**Əlavə təsirləri**
Bütün dərmanlar kimi, LOZAP da həmçinin əlavə təsir göstərə bilər, baxmayaraq ki, heç də hər kəs onları qəbul etmir. Bəzi xəstələr başgicəllənmə, halsızlıq, yüngül başağrıları, dəri səpgiləri və ya övrə xəstəliklərindən əziyyət çəkə bilərlər.
Bir çox xəstələrdə , xüsusilə sidikdə protein olan II tip şəkərli diabetli xəstələrdə, həmçinin qanda kalium səviyyəsi artması müşahidə oluna bilər. Əgər siz böyrək xəstəliyindən və sidikdə protein olan II tip şəkərli diabetdən əziyyət çəkirsinizsə və ya kalium əlavələrindən, kaliumlu məhsullardan və ya kalium tərkibli duzun əvəzlənməsindən istifadə edirsinizsə, həkiminizə müraciət edin.

Əgər sizdə allergik reaksiya o cümlədən üzdə, dodaqlarda, boğazda və ya nəfəs alarkən və ya udqunarkən çətinlik törədən dildə şişkinlik inkişaf edirsə, LOZAPDAN istifadə etməyi dayandırın və dərhal tibbi yardım arayın.
Əgər əks təsirlər ciddiləşirsə və ya bu kitabçada qeyd edilməmiş hər hansı bir əks təsirlə rastlaşırsınızsa, bu barədə həkiminizə və ya əczaçıya müraciət edin.

**Buraxılış forması**
Blisterdə 30, 60, 90 tablet, içlik vərəqə ilə birgə karton qutuya qablaşdırılır.
Qablaşdırmaların bütün ölçüləri marketdə olmaya bilər.

**Saxlanma şəraiti**
$30^0$ C- dən aşağı temperaturda, qaranlıq və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

Dərmanlar çirkab sularına və ya məişət tullantılarına atılmamalıdır. İstifadə edilməyəcək dərmanları necə tullamaq barədə əczaçınıza müraciət edin. Bu tədbirlər ətraf mühiti qorumağa kömək edəcək.

**Aptekdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı**
Zentiva a.s., HİohovecHİohovec, Slovakiya Respublikası